*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 3, 2026*
*Səh. 403-408*

https://doi.org/10.62837/2026.3.403

**NOVRUZOV KƏNAN VUQAR OĞLU**
Bakı Dövlət Universiteti,
n.kenana@gmail.com
ORCID: 0009-0003-3220-7276

# MEDIADA INFORMASIYA MƏNBƏLƏRI ILƏ IŞ

**Xülasə**

Medianın ən spesifik məsələlərindən biri informasiya mənbələri ilə işləməkdir. Jurnalistin peşəkarlığının əsas göstəricisi məhz informasiyanın axtarılması, əldə olunması və ötürülməsi ilə bağlı fəaliyyətidir. Bu baxımdan informasiya mənbələri ilə işləməyə xüsusi diqqət yetirilməlidir. İnformasiya mənbələri iki kateqoriyaya bölünür: açıq və qapalı. Açıq mənbələrlə işləmək xüsusi çətinlik yaratmır. Lakin qapalı mənbələrlə işləmək çox vaxt jurnalistdən xüsusi bacarıqlar tələb edir. Qapalı mənbələrlə işləyərkən bir neçə məqama diqqət yetirmək lazımdır: düzgün mənbənin seçilməsi, onların məlumat ötürməyə razılığının təmin olunması - bu kontekstdə qarşı tərəfin etimadını qazanmaq xüsusilə vacibdir - və mənbənin təhlükəsizliyinə hər hansı bir təhdidin qarşısını almaq.

Qapalı mənbələrlə işləyərkən ünsiyyətə xüsusi diqqət yetirilməlidir. Qarşı tərəfdən məlumat əldə etmək üçün əvvəlcə uğurlu ünsiyyət qurulmalıdır. Kobud və ya sərt üslub adətən nəticə vermir. Jurnalist anlamalıdır ki, belə ritorika nə hörmət qazandırır, nə də informasiya əldə etmək prosesində uğur gətirir. Jurnalist bilməlidir ki, qarşı tərəf - istər potensial mənbə, istərsə də rəsmi şəxs olsun — xüsusi bir öhdəliyə malik deyil. Buna görə də məlumat əldəetmə prosesində xüsusi üsullardan istifadə olunmalı və səbir nümayiş etdirilməlidir. Ən mühüm məqamlardan biri etik normalara riayət etməkdir. Mənbə ilə işləyərkən jurnalist qarşı tərəfi inandırmalıdır ki, təqdim olunan məlumat şəxsi maraqlara deyil, ictimai əhəmiyyətə əsaslanır. Digər tərəfdən, media nümayəndəsi heç vaxt mənbənin kimliyini açıqlamamalı və onun təhlükəsizliyinə hər hansı bir təhdid yaratmamalıdır.

**Açar sözlər:** jurnalist, informasiya, informasiya mənbəyi, media

**NOVRUZOV KENAN**

## WORKING WITH INFORMATION SOURCES IN JOURNALISM.

**SUMMARY**

One of the most specific issues in media is working with information sources. The main indicator of a journalist’s professionalism is precisely their activity related to searching for, obtaining, and transmitting information. In this regard, special attention should be paid to working with information sources. Information sources are divided into two categories: open and closed. Working with open sources does

not create particular difficulties. However, working with closed sources often requires special skills from the journalist. When dealing with closed sources, several points must be considered: selecting the right source, ensuring their consent to provide information — in this context, gaining the trust of the other party is especially important — and preventing any threat to the source's safety.

When working with closed sources, communication requires special attention. To obtain information from the other party, successful communication must first be established. A rude or harsh style usually yields no results. The journalist must understand that such rhetoric neither earns respect nor brings success in the process of obtaining information. The journalist should also realize that the other party — whether a potential source or an official — has no special obligation. Therefore, special methods should be used in the information-gathering process, and patience must be demonstrated. One of the most important aspects is adherence to ethical norms. When working with a source, the journalist must convince the other party that the information provided is based not on personal interests but on public significance. On the other hand, the media represe.

**Keywords:** journalist, information, information source, media

## РЕЗЮМЕ

Одним из наиболее специфических вопросов в медиа является работа с источниками информации. Главным показателем профессионализма журналиста является именно деятельность, связанная с поиском, получением и передачей информации. В этом отношении особое внимание следует уделять работе с источниками информации. Источники делятся на две категории: открытые и закрытые. Работа с открытыми источниками не вызывает особых трудностей. Однако работа с закрытыми источниками зачастую требует от журналиста особых навыков. При работе с закрытыми источниками необходимо учитывать несколько моментов: правильный выбор источника, обеспечение его согласия на передачу информации — в этом контексте особенно важно завоевать доверие другой стороны — и предотвращение любых угроз безопасности источника. При работе с закрытыми источниками особое внимание следует уделять коммуникации. Чтобы получить информацию от другой стороны, сначала необходимо наладить успешное общение. Грубый или жесткий стиль, как правило, не приносит результата. Журналист должен понимать, что такая риторика не приносит ни уважения, ни успеха в процессе получения информации. Журналист также должен осознавать, что другая сторона — будь то потенциальный источник или официальное лицо — не имеет особых обязательств. Поэтому в процессе получения информации следует использовать специальные методы и проявлять

терпение. Одним из важнейших моментов является соблюдение этических норм.

Работая с источником, журналист должен убедить другую сторону в том, что предоставляемая информация основана не на личных интересах, а на общественной значимости. С другой стороны, представитель СМИ никогда не должен раскрывать личность источника или создавать угрозу его безопасности.

**Ключевые слова:** журналист, информация, источник информации, медиа

**Mediada informasiya mənbələri ilə iş**

Jurnalistikannın fərqləndirici cəhətlərindən biri daim mənbələrlə işləməkdir. Bu mənada mənbələrlə işləmək jurnalistik fəaliyyətin əsasını təşkil edir. Bu isə xüsusi bacarıq və peşəkarlıq tələb edir.

Qeyd etmək lazımdır ki, jurnalistikada informasiya mənbələri ilə işin uğurlu təşkili ümumi nəticənin yarısını təşkil edir. *"Jurnalistlər etibarlı faktlarla maraqlanmalıdırlar, buna görə də xəbər yazarkən istifadə olunan mənbələrin dəqiqliyi vacibdir. İnformasiya mənbələrini qiymətləndirməyin əsas yolu onların etibarlılığıdır. Mövzunu araşdırarkən hansı mənbədən istifadə etməyimizdən asılı olmayaraq, mənbənin etibarlılığını nəzərə almaq son dərəcə vacibdir. Müasir dövrdə istənilən şəxs peşəkar görünən vebsayt yarada və ya etibarlı təsir bağışlayan, lakin əslində yalan məlumat yayan elektron poçt ünvanı aça bilər"* [6].

Bir çox jurnalistik janrlarda mənbələrlə işləmək prioritet istiqamətə çevrilir. Xəbər, müsahibə, reportaj kimi janrlar mənbəsiz təsəvvür edilə bilməz. Bəs niyə informasiya mənbələri jurnalistikada bu qədər mühüm rol oynayır? Çünki jurnalistikanın mərkəzində məhz informasiya dayanır. Bəzən jurnalist həmin informasiyanı axtarır, əldə edir və ötürür, bəzən isə onu təhlil edir. *"Jurnalistikanın yaranması və inkişafı cəmiyyətin informasiya mübadiləsinə olan ehtiyacının nəticəsi kimi meydana çıxdı. Bu gün biz tez-tez informasiyanın böyük gücündən, onun dünyada oynadığı aparıcı roldan və bütövlükdə informasiya cəmiyyətindən danışırıq"* [2].

Jurnalistin informasiya ilə işləməsi üçün əvvəlcə onu əldə etməsi vacibdir. Bu isə mənbələrin düzgün seçilməsini zəruri edir.

**Jurnalistikada İnformasiya Mənbələri ilə İşin Xüsusiyyətləri**

Mənbələr iki kateqoriyaya bölünür: açıq və qapalı. Açıq mənbələr hər kəs, o cümlədən bütün jurnalistlər üçün əlçatandır. İnternet, kitabxanalar, arxiv materialları və oxşar resurslar açıq mənbələrə nümunə ola bilər. Adətən açıq mənbələrlə işləmək media nümayəndələri üçün xüsusi çətinlik yaratmır. Bu hallarda jurnalistdən əsas tələb hazırlanan materialda informasiyanın ardıcıllığını təmin etmək və onların arasında məntiqi əlaqələr qurmaqdır. Açıq mənbələrlə işləmək daha asan olduğundan, bir çox jurnalistlər bu işi rahatlıqla yerinə yetirə bilirlər.

Daha çətin məsələ isə qapalı mənbələrlə işləməkdir. Qapalı mənbələr hər kəs üçün əlçatan deyil. Belə mənbələrdən informasiya əldə etmək jurnalistdən müəyyən keyfiyyətlər tələb edir: ünsiyyət bacarığı, soyuqqanlılıq, təmkin, güclü müşahidə qabiliyyəti və analitik düşüncə.

Qapalı mənbələr arasında dövlət və hərbi sirləri qoruyanlara xüsusi diqqət yetirilməlidir. Məsələ ondadır ki, bəzi məlumatların açıqlanması milli təhlükəsizlik üçün ciddi problemlər yarada bilər. Media nümayəndələri bunu unutmamalı və fəaliyyətlərində dövlətin maraqlarını, o cümlədən informasiya, hərbi və enerji təhlükəsizliyini nəzərə almalıdırlar. Lakin bu, bütün qapalı mənbələrlə işləməyin milli təhlükəsizlik üçün təhdid olduğu anlamına gəlmir. Əksinə, bəzən qapalı mənbələrlə işləmək, müəyyən məlumatların əldə olunması və dərc edilməsi ciddi ictimai müzakirələrə səbəb ola bilər. Bu mənada jurnalistlər qapalı mənbələrlə işləmə prosesinə xüsusi həssaslıqla yanaşmalıdırlar. Həqiqəti üzə çıxarmaq, problemləri müəyyənləşdirmək və həll yolları tapmaq vacibdir, eyni zamanda milli təhlükəsizlik təhdid altına düşməməlidir. *"Mətbuat azadlığı bayrağını qaldıran jurnalist unutmamalıdır ki, yayılan hər hansı yanlış söz insanları fəlakətə sürükləyə bilər"* [1].

Mənbələrlə işin ən mühüm istiqamətlərindən biri qurumların mətbuat xidmətləri ilə ünsiyyətdir. Jurnalist mətbuat xidmətləri ilə ünsiyyətdə bir neçə məqama xüsusi diqqət yetirməlidir. Birincisi, qarşı tərəfin işi informasiya vermək olsa da, buna məcbur olmadığını anlamalıdır. Buna görə jurnalist tələbkar üslubdan çəkinməlidir. İkincisi, jurnalist qarşı tərəfi inandırmalıdır ki, istədiyi və ötürmək niyyətində olduğu məlumat ictimai əhəmiyyət daşıyır. Başqa sözlə, jurnalist mətbuat xidmətinə ictimai marağın təzyiqini hiss etdirməlidir. Üçüncüsü, jurnalist mümkün qədər nəzakətli dil və ünsiyyət texnikalarından istifadə etməlidir. Dördüncüsü, jurnalist tək bir cəhdlə kifayətlənməməli, lazım olan informasiyanı əldə etmək üçün bir neçə dəfə səy göstərməlidir. Jurnalistikada öyrənilən xüsusi mövzulardan biri "news-maker"lərlə bağlıdır. "News-maker" jurnalistlərə məxfi məlumat verən şəxsdir. Peşəkar jurnalistlərin müxtəlif qurumlarda belə "news-maker"ləri olur. Onlar əməkdaşlıq etdikləri jurnalistlərə gizli məlumatlar ötürürlər. Bir çox hallarda eksklüziv materiallar məhz bu əməkdaşlığa əsaslanır. Qeyd etmək lazımdır ki, "news-maker"lərlə işləmənin əsas prinsiplərindən biri onların etimadını qazanmaqdır. Yəni müxtəlif qurumlarda, o cümlədən nazirliklərdə mənbə jurnalistə informasiya vermək üçün ona inanmalıdır. Bu, şəxsi münasibətlər kontekstində və ya müəyyən kompensasiya müqabilində baş verə bilər. Hər halda, etimad və inam olmadan jurnalist "news-maker"lə əməkdaşlıq edə bilməz. Öz növbəsində media nümayəndəsi mənbənin təhlükəsizliyini qorumalı və təhdidlər bahasına belə onun kimliyini açıqlamamalıdır. Mənbənin açıqlanması onun həyatına ciddi təhlükələr yarada bilər. *"Məqalənin müəllifini dərcdən əvvəl açıqlamaq onun forma və məzmununa nəzarəti itirmək deməkdir"* [7]. Bu fikirlə razılaşmamaq çətindir. Lakin material dərc olunduqdan və ya reportaj yayımlandıqdan sonra belə mənbə

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 3, 2026*
*Səh. 403-408*

açıqlanmamalıdır. Bu, yalnız qanuni qüvvəyə minmiş məhkəmə qərarı ilə mümkündür.

*"Kütləvi informasiya vasitələrinin işinin əsas aspekti xidmət etdiyi cəmiyyəti ən yeni, ən dəqiq və ən dolğun məlumatla təmin etməkdir"* [3]. İnformasiya mənbələri də bunu anlayırlar. Müxtəlif mənbələr, o cümlədən rəsmilər, tez-tez medianın ictimai rəyə təsir imkanlarından istifadə etməyə çalışırlar. Bu mənada bir çox mənbələr təbliğat və ya reklam xarakterli məlumatlar yayır, ictimai rəyi şəxsi maraqları üçün qəsdən çaşdırmağa cəhd edirlər. Buna görə jurnalistlər onlara təqdim olunan bütün məlumatlara skeptik yanaşmalıdırlar. Media nümayəndələri aldıqları və dərc etməyi planlaşdırdıqları hər bir məlumat barədə özlərinə sual verməlidirlər: *"Bu, etibarlıdırmı?"* və *"Qarşı tərəf niyə bu məlumatın yayılmasını istəyir?"* Adətən informasiya mənbələri, o cümlədən mətbuat xidmətləri aşağıdakı hallarda məlumat verirlər:

- Təbliğat və reklam məqsədləri üçün;
- İctimai rəyi qəsdən çaşdırmaq üçün;
- İnformasiya müharibəsini öz xeyrinə çevirmək üçün;
- Mənfəət əldə etmək üçün və s.

Jurnalistlər bütün mümkün ssenariləri nəzərə almalı və informasiya dərc edərkən dəqiqlik meyarını əsas götürməlidirlər. Bu baxımdan, jurnalistlərə tez-tez məlumatı bir neçə mənbədən yoxlamaq tövsiyə olunur. Əks halda, ictimai rəyi çaşdırmaq və dezinformasiya yaymaq ehtimalı yaranır. *"Məzmunun misilsiz sürətlə istehsal və paylaşdığı dünyada, məlumatı bir neçə etibarlı mənbədən yoxlamaq getdikcə daha vacib olur. İnsanlar yalnız bir mənbəyə güvəndikdə, natamam, qərəzli və ya yanlış məlumat əsasında fikir formalaşdırmaq və ya qərar qəbul etmək riski daşıyırlar. İstər xəbər agentliyi, tədqiqatçı, bloqçu, istərsə də sosial media hesabı olsun, hər bir mənbə informasiyanı öz prizmasından təqdim edir. Bu baxışlar redaksiya siyasəti, mədəni dəyərlər, şəxsi şərhlər və ya kommersiya maraqları ilə formalaşa bilər. Bir neçə etibarlı mənbəyə müraciət etməklə insanlar bu fərqləri müəyyən edə, faktları müqayisə edə və istənilən mövzuya daha balanslı və məlumatlı yanaşma əldə edə bilərlər"* [7].

Müasir dövrdə məlumatı bir neçə mənbədən yoxlamaq həm üstünlüklərə, həm də çətinliklərə malikdir. İnformasiya və Kommunikasiya Texnologiyalarının sürətli inkişafı çevik axtarış və yoxlamalar üçün imkanlar yaradır. Digər tərəfdən, informasiya indi çox tez köhnəlir və aktuallığını itirir. Başqa sözlə, vaxtında təqdim olunma əvvəlki dövrlərə nisbətən daha vacibdir. Buna görə yoxlamalar da sürətlə aparılmalıdır.

*"Müasir ictimai həyatda mühüm yer tutan jurnalistika, hər şeydən əvvəl, ictimai əhəmiyyətli və aktual informasiyanın toplanması, işlənməsi və yayılması ilə bağlı ictimai fəaliyyət və yaradıcılıq sahəsidir"* [5].

Beləliklə, media nümayəndələri fəaliyyətlərində ictimai marağı prioritet etməlidirlər. İstər mənbələrlə işləyərkən, istərsə də digər proseslərdə onların əsas meyarı sosial əhəmiyyət olmalıdır. Mövzunu seçərkən və işıqlandırarkən jurnalist onun zəruriliyini ictimai əhəmiyyətinə görə müəyyənləşdirməlidir. Bu baxımdan, mənbələrdən əldə olunan və ya onların təqdim etdiyi hər bir məlumat bu amilə əsasən prioritetləşdirilməlidir. Əgər xəbərin ictimai əhəmiyyəti yoxdursa, onun işıqlandırılması məqsədəuyğun deyil. Beləliklə, informasiya mənbələri ilə işləmək kifayət qədər ciddi və məsuliyyətli bir məsələdir. Burada bütün mümkün amillər nəzərə alınmalıdır, o cümlədən informasiyanın ictimai rəyə potensial təsiri və manipulyasiya riski. *"Hər bir kütləvi informasiya vasitəsi cəmiyyətin etimadını qazanmağa layiq deyil. Medianın cəmiyyətdə təsiri yalnız orada çalışan jurnalistlər obyektiv, müstəqil, dəqiq, dürüst və peşəkar olduqda mövcuddur"* [1]. "Peşəkarlıq" meyarı çərçivəsində informasiya mənbələri ilə iş xüsusi yer tutur, çünki bu aspekt digər bütün proseslərə bir şəkildə təsir göstərir. Buna görə də həm redaksiyalar, həm də ayrı-ayrı jurnalistlər informasiya mənbələri ilə işləməyə xüsusi diqqət yetirməlidirlər. Unutmaq olmaz ki, *"jurnalistika yalnız ictimai ünsiyyətin və kütləvi ünsiyyətin davamı və yayılması deyil, həm də bu sistemə məna çalarları verən katalizatordur"* [2]. Mütəxəssislərin qeyd etdiyi kimi, medianın bu "katalizator" funksiyasını yerinə yetirməsində informasiya - və nəticə etibarilə mənbələr - həlledici rol oynayır. İnformasiya nə qədər obyektiv və ictimai əhəmiyyətli olarsa, mənbə bir o qədər sağlam, həmin mənbə ilə ünsiyyət bir o qədər uğurlu olar və jurnalist öz işini bir o qədər peşəkar şəkildə yerinə yetirər.

**Açar sözlər:** jurnalistika, media, ictimai rəy, informasiya mənbəyi

## İstinadlar

1. A. Rüstəmov, *Jurnalistika kütləvi informasiya sistemi kimi*, SkyE, Bakı, 2021, s. 398, 283
2. C. Məmmədli, *Jurnalistikanın nəzəriyyəsi və təcrübəsi*, "Təhsil" Nəşriyyatı, 2013, s. 655, 18
3. Əlisəfa Mehdi, *Rəsmi şəxs və jurnalist*, "Ulus" Fondu, Bakı, 2020, s. 287, 169
4. Q. Məhərrəmli, *Jurnalistikanın əsasları*, "Qanun" Nəşriyyatı, 2012, s. 434–52
5. Q. Məhərrəmli, *Jurnalistikanın missiyası*, "Füyuzat", Bakı, 2022, s. 175, 8

Onlayn resurslar:

**Online Resources**

6. *Jurnalistikada mənb*ələr – 1905.az
7. *Why Is Cross-Checking Information from Multiple Reliable Sources Important?* – Library & Information Science Education Network
8. *Китабын ичиндякиляр*

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 3, 2026*
*Səh. 403-408*

**Rəyçi: professor Cahangir Məmmədli**